Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəsi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Tofiq Həsənov noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə deputatlığa namizəd Nəcəfli Rəşid Mikayıl oğlunun Mərkəzi Seçki Komissiyasına 23 sentyabr 2015-ci il tarixli 05 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 23 sentyabr 2015-ci il

Mən, ekspert qrupunun üzvü Tofiq Həsənov 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 82 saylı Ağcabədi seçki dairəsindən deputatlığa namizədliyi Musavat Partiyası tərəfindən irəli sürülmüş Nəcəfli Rəşid Mikayıl oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 23 sentyabr 2015-ci il tarixli 05 saylı yazılı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən araşdırmaya qəbul edilmişdir.

2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 82 saylı Ağcabədi seçki dairəsi üzrə namizədliyi Musavat Partiyası tərəfindən irəli sürülmüş Nəcəfli Rəşid Mikayıl oğlu 23 sentyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına müraciət edərək imza vərəqəsinin yoxlanılması prosesində iştirak etməsinə maneçilik törədildiyini bildirmiş və müvafiq tədbir görülməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipini əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Araşdırma prosesində ərizəçi ilə əlaqə yaradılmış, araşdırmada iştirak etmək hüququ barədə ona məlumat verilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59.3-cü maddəsinə görə imza vərəqələri yoxlanılarkən müvafiq seçki komissiyasında namizədlər, onların səlahiyyətli nümayəndələri, siyasi partiyaların, siyasi partiyalar

bloklarının səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. Müvafiq seçki komissiyası imza vərəqələrinin yoxlanılması haqqında göstərilən şəxslərə qabaqcadan məlumat verməlidir. Seçki komissiyası namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun göndərdiyi şəxsin həmin tədbirlərdə iştirakına etiraz edə və ya maneçilik törədə bilməz.

Göründüyü kimi irəli sürülmüş namizədin imza vərəqələrinin yoxlanılması prosesində iştirakı Seçki Məcəlləsində təsbit edilmişdir. Ona görə də hazırki müraciət əsaslı hesab edilərək təmin edilməli, onun imza vərəqələrinin yoxlanılması prosesində iştirakının təmin edilməsi dairə seçki komissiyasına həvalə edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 59-cu, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 82 saylı Ağcabədi seçki dairəsi üzrə namizədliyi Musavat Partiyası tərəfindən irəli sürülmüş Nəcəfli Rəşid Mikayıl oğlunun 23 sentyabr 2015-ci il tarixli 05 saylı müraciəti təmin edilsin, imza vərəqələrinin yoxlanılması prosesində onun iştirakının təmin edilməsi həmin dairə seçki komissiyasına həvalə edilsin.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Tofiq Həsənov